Azərbaycan Respublikası Nazirlər Kabinetinin göstərilən qərarının icrası ilə əlaqədar

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2010-cu il tarixli 5 nömrəli qərarı rəhbərlik və icra üçün qəbul edilsin.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdində "Təsərrüfathesablı De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi" yaradılsın.

3. "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının (2006-2015-ci illər)" idarə olunması üzrə İşçi Qrupunun rəhbəri Məlahət Arif qızı Hacıyeva De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin rəisi vəzifəsinə təyin edilsin.

4. De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi (M. Hacıyeva):

4.1. Bir ay müddətinə İdarənin nizamnaməsinin hazırlanmasını, mövcud qanunvericiliyə uyğun qeydiyyatdan keçirilməsini təmin etsin.

4.2. İdarənin möhür və ştampının hazırlanmasını təmin etsin.

4.3. Təhsil Nazirliyi sistemində olan dövlət uşaq müəssisələrində təlim-tərbiyə alan və yerləşdirilən yetim və valideyn himayəsindən məhrum olmuş uşaqların vaxtında aşkar edilməsi, yerləşdirilməsi, övladlığa, qəyyumluğa (himayəyə) və himayədarlığa verilməsi və rəsmi statistik hesabatların alınması ilə bağlı işlərin Rayon və Şəhər İcra hakimiyyətləri nəzdində fəaliyyət göstərən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar ilə sıx əməkdaşlıq çərçivəsində tənzimlənməsini təmin etsin.

4.4. "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı"nın əhatə etdiyi və Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin tabeliyində olan dövlət uşaq müəssisələri ilə sıx əlaqəli əməkdaşlığı təmin etsin.

5. "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı"nın əhatə etdiyi və Təhsil Nazirliyi sistemində olan internat məktəbləri, uşaq evləri və alternativ qayğı müəssisələri De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin kurasiyasına verilsin (siyahı əlavə olunur).

6. Rayon və Şəhər Təhsil Şöbələrinin müdirlərinə tapşırılsın ki, risk qrupuna daxil olan, sağlamlıq imkanları məhdud uşaqların vaxtında aşkar olunması və onların müdafiəsi ilə bağlı preventiv tədbirlərin görülməsi üçün təhsil şöbələrinin uşaq mühafizəsi üzrə məsləhətçilərinin, ümumtəhsil məktəblərində uşaq birliyinin rəhbərlərinin, psixoloq və təşkilatçı vəzifəsində çalışan, məktəbəqədər müəssisələrində isə metodist vəzifəsində çalışan əməkdaşların De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi ilə sıx əməkdaşlığını təmin etsinlər.

7. Respublika və Bakı şəhəri üzrə Psixoloji-Tibbi-Pedaqoji Komissiyalarının sədrlərinə tapşırılsın ki, sağlamlıq imkanları məhdud olan uşaqların dövlət uşaq müəssisələrinə yerləşdirilməsi ilə bağlı qərarların De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi ilə razılaşdırılmasını təmin etsinlər.

8. İqtisadiyyat şöbəsi (Ş. Əliyev):

8.1. Xəzinə orqanında De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin xəzinə hesab kitabının açılması məqsədi ilə Maliyyə Nazirliyinə müraciət olunmasını təmin etsin.

8.2. De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin strukturunu və xərclər smetasını Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla təsdiq üçün təqdim etsin.

8.3. Təsdiq olunmuş xərclər smetasına əsasən, maliyyələşmə ilə əlaqədar müvafiq vəsaitin müəyyən olunmuş ümumi qaydada idarənin yerləşdiyi xəzinədarlıq orqanı üzrə xəzinə hesabına köçürülməsini təmin etsin.

8.4. Nəzərə alınsın ki, “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı(2006-2015-ci illər)”nın icrası üçün dövlət büdcəsi və digər mənbələr hesabına nəzərdə tutulmuş vəsaitlər üzrə sifarişçi funksiyasını Azərbaycan Respublikasının Təhsil Nazirliyi De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi vasitəsilə həyata keçirir.

9. Ümumi şöbə (İ. Mirzəyev):

9.1. De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin yerləşdirilməsi məsələsini həll etsin.

9.2. Əmrin çoxaldılaraq yerlərə çatdırılmasını təmin etsin.

10. İctimaiyyətlə əlaqələr şöbəsi (B. Hüseynzadə) əmrin “Azərbaycan müəllimi” qəzetində, “Təhsil xəbərləri” məcmuəsində dərc olunmasını təmin etsin.

11. İşçi Qrupun yaradılması barədə Təhsil Nazirliyinin 02.07.2007-ci il 788 nömrəli əmri qüvvədən düşmüş hesab edilsin.

12. Əmrə nəzarəti öz üzərimə götürürəm.

Əsas: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2010-cu il tarixli 5 nömrəli qərarı, İ.Pirməmmədov, F. Qədirov, Ş. Əliyev və M. Hacıyevanın müvafiq dərkənarla birgə təqdimatı, A. Muradovun 21.12.2009-cu il tarixli müvafiq dərkənarla təqdimatı.

***Misir Mərdanov***

***Təhsil naziri***

***18.01.2010-cu il***

***№ 28***

---

## Əlavə

Dövlət Proqramının əhatə etdiyi və Təhsil Nazirliyinin sistemində olan internat və uşaq evlərinin, günərzi qayğı və reabilitasiya-inkişaf mərkəzlərinin siyahısı